# Xalqımızın zəfər salnaməsinin başlanğıc günü

**1993-cü il müasir Azərbaycan tarixinin dönüş mərhələsidir. Bu mərhələ Azərbaycan xalqının həyatında bütün istiqamətlərdə köklü islahatların işlənib hazırlanmasının, onların həyata keçirilməsi prinsiplərinin formalaşmasının başlanğıcıdır.**

Azərbaycanda bütün sahələrdə olduğu kimi, milli şüurun və milli özünüdərkin bütün formalarının yüksək vüsət almasına imkan verən sürətli inkişaf strategiyasının seçilməsi, onun uğurla həyata keçirilməsi böyük şəxsiyyət, dahi siyasətçi Heydər Əliyevin adı ilə bağlıdır.

Ölkəmizdə müstəqil dövlət quruculuğu ardıcıl və məqsədyönlü proses olaraq, əslində 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra başlanmışdır. Həmin tarix millətimizin zəfər salnaməsinin başlanğıc günü kimi əlamətdardır.

Dövlətçiliyimiz üçün olduqca ciddi təhlükə törədən silahlı birləşmələrin ləğvindən sonra və dövlət orqanlarında müəyyən idarəçilik təcrübəsinə bələd olan şəxslərin bilik və qabiliyyətindən maksimum surətdə istifadə olunduqdan sonra daxili sabitlik mərhələsi başlandı ki, bu da genişmiqyaslı quruculuq işləri üçün şərait yaratdı.

Yeni tarixi inkişaf mərhələsində Azərbaycanın qarşısında dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, respublikanın ərazi bütövlüyünün bərpası, Dağlıq Qarabağ probleminin milli maraqlara uyğun olaraq həll edilməsi kimi mühüm tarixi vəzifə dururdu. Bütün bunlar ardıcıl düşünülmüş, məqsədyönlü daxili və xarici siyasətin həyata keçirilməsini, bu məqsədlə ölkənin intellektual və sosial-iqtisadi potensialından, ictimai-siyasi qüvvələrindən səmərəli istifadə olunmasını tələb edirdi. Lakin ölkənin siyasi həyatında cərəyan edən hadisələr, hakimiyyəti ələ keçirmək üçün edilən müxtəlif cəhdlər müstəqillik yolunda hədsiz problemlər yaradırdı. Belə şəraitdən baş çıxarmaq hamıya nəsib olan bir nemət deyildi.

"Heydər Əliyev xalqımıza ulu Tanrının payıdır" - deyənlər nə qədər də haqlıdırlar. Bu deyim özözünə yaranmayıb. Azərbaycanın 1969-1982 və 1993-2003-cü illərdə, yəni ümummilli liderimizin rəhbərlik etdiyi dövrlərdə əldə etdiyi nailiyyətlərə diqqət etsək, bu deyimin haradan yarandığına əmin olarıq.

Heydər Əliyevin canından artıq sevdiyi vətəni qarşısında göstərdiyi misilsiz xidmətlər, cahanşümul əməllər onun hər bir Azərbaycan vətəndaşının qəlbində möhtəşəm bir abidəsini ucaltmışdır. Bu nadir tarixi simanın şüurlu ömrünün hər bir anı doğma vətəninə və xalqına, onun yüksəlişinə və tərəqqisinə xidmətə həsr edilib.

Tarixə müraciət etsək, öz xalqının həyatında xüsusi rol oynayan liderlərin adlarının bu gün də o xalqlar tərəfindən yaşadıldığının şahidi olarıq. Bəzən fərqləndirərək deyirlər ki, kimsə Şərq aləmində, kimsə Qərbdə sevilən liderdir. Lakin biz Heydər Əliyev şəxsiyyətini bu baxımdan xarakterizə etmək istəsək, deyəcəyik ki, Heydər Əliyev elə bir şəxsiyyətdir ki, onu eyni məhəbbətlə həm şərqlilər, həm də qərblilər sevirdilər. Çünki bu fenomenal şəxsiyyət həm Şərq, həm Qərb, başqa sözlə, planetar düşüncə tərzinə malik idi.

Heydər Əliyev müdrikliyi yalnız bir şəxsiyyətin fərdi qabiliyyətinin nəticəsi deyildi, bütövlükdə xalqın tarixi iradəsinin ifadəsi idi. Elə bunun nəticəsi idi ki, o, xalqın, ümumazərbaycanın lideri idi. Heydər Əliyev dühası, ona xas olan enerji bir qrupun, bir partiyanın miqyasına sığa bilməzdi. Aydındır ki, xalqın lideri səviyyəsinə ucalmaq üçün şəxsiyyət uzun bir təkamül yolu keçməlidir. O da bir reallıqdır ki, xalq mentalitetini özündə əks etdirməyən, onun tarixi və əfsanəvi qəhrəmanlarının keyfiyyətlərini özündə cəmləşdirməyən insan lider kimi qəbul edilə bilməz. Heydər Əliyev təkcə tarixin, taleyin seçimi deyildi, o, həm də müdrik Azərbaycan xalqının seçimi idi.

Ölkə iqtisadiyyatının bütün sahələrində ulu öndərin göstərişilə 1995-ci ildən ardıcıl olaraq islahatlar həyata keçirilməyə başlandı.

Ölkə iqtisadiyyatına xarici investisiya qoyuluşuna diqqət artırıldı. Demək olar ki, dünyanın əksər inkişaf etmiş ölkələrinin iştirakı ilə "Əsrin müqaviləsi" imzalandı. Dünyanın ən böyük enerji layihələrindən olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisinə başlandı. Çox sevindirici haldır ki, ümummilli liderimizin cəmiyyətə təqdim etdiyi siyasi kursun möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla, yaradıcılıqla həyata keçirilməsi sayəsində bu layihələr ardıcıl olaraq reallığa çevrilməyə başladı.

Respublikamız hazırda inkişafının elə mərhələsindədir ki, qazanılmış makroiqtisadi nailiyyətlər cəmiyyət həyatının ən müxtəlif sahələrində tərəqqi və intibaha, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğuna xidmət edən, hər bir vətəndaşın həyatında mühüm dəyişikliklərlə müşayiət olunan islahatları əzmlə gerçəkləşdirmək imkanı yaradır. Prezident İlham Əliyevin rəhbərliyi altında inamla irəliləyərək avratlantik məkana inteqrasiya kursunu davam etdirən, qlobal enerji və kommunikasiya layihələrinin mərkəzinə çevrilən, ümumi daxili məhsulun artım tempinə görə dünyanın lider dövlətləri sırasında yer tutan respublikamızda xalqın inamlı sabahı baxımından strateji əhəmiyyət daşıyan demokratikləşmə prosesinin sürətləndirilməsi xüsusi diqqət mərkəzindədir.

Dövlət başçısı İlham Əliyev ölkədə milli birliyin möhkəmləndirilməsi, azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı faktoruna çevrilməsi istiqamətində mühüm işlər görmüşdür. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın istəyilə hakimiyyətə qayıdışı ilə Azərbaycanda əldə edilmiş milli birlik ölkəmizin ən qiymətli mənəvi-ideoloji sərvətlərindən biridir və ötən müddətdə cənab İlham Əliyev ümumxalq həmrəyliyinin möhkəmləndirilməsi xəttini davam etdirmiş, bu siyasi xətti özünün konkret addımları ilə kamil elmi-nəzəri konsepsiya səviyyəsinə qaldırmışdır.

Bu gün İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli islahatlar Azərbaycan dövlətinin siyasi xarakterini və inkişaf yolunu müəyyən edir. Bu müəyyənləşmə Azərbaycanın qısa müddət ərzində iqtisadi inkişaf göstəricilərinə görə bütün dünyada liderə çevrilməsi faktıdır.

Hamımızın böyük sevinclə və qürur hissi ilə izlədiyimiz birinci Avropa Oyunlarının keçirilməsi də dövlətimizin böyük uğuru, ulu öndərimizin arzularının təntənəsidir.

Məhz Heydər Əliyev siyasi kursunun layiqli davamçısı olan cənab Prezidentimiz İlham Əliyevin mətin iradəsi, yorulmaq bilmədən həyata keçirdiyi düzgün iqtisadi, siyasi, sosial-mədəni siyasət nəticəsində indi Azərbaycanın elə bir kəndi, qəsəbəsi, şəhəri tapılmaz ki, orada həyat bulaq kimi qaynamasın.

Bütün bunlar bir daha ulu öndərimizin bizə qoyub getdiyi ən əziz əmanət olan milli müstəqilliyimizin təntənəsinin parlaq nəticəsidir.

Bu əvəzolunmaz əmanətə sədaqətimizi sübut etmək üçün hər birimiz möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ətrafında daha sıx birləşməli, onun daxili və xarici siyasətini birmənalı şəkildə dəstəkləməliyik.

**Məcid ƏLİYEV,**
**Şəki Mərkəzi Xəstəxanasının baş həkimi, Yeni Azərbaycan Partiyasının üzvü.**